İPƏK YOLU, No.1, 2023, səh.104-109

# YAZIÇI PUBLİSİSTİKASININ ELMİ-NƏZƏRİ İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

**Leyla Məmmədəliyeva**

Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: leyla.mammadaliyeva@au.edu.az

**Xülasə.** Məqalədə Azərbaycan publisistikasının keçdiyi tarixi inkişaf yolu dövrlər üzrə ardıcıllıqla araşdırılaraq təhlil və tədqiq edilmiş, publisistikanın yaranmasının tarixi qaynaqları, onun meydana gəlməsinə rəvac verən amillər, ideya istiqamətləri dövrün ictimai-siyasi fonunda təqdim olunmuşdur. Məqalədə hadisələrə çevik və operativ münasibət bəsləyən görkəmli Azərbaycan yazıçı-publisistlərinin xidmətləri, onların publisistik əsərlərində mühitin xarakterik xüsusiyyətləri, müstəqillik dövrünə xas olan ictimai-siyasi vəziyyət, publisistikanın inkişafında hipperrealizm cərəyanının da rolundan bəhs olunur.

**Açar sözlər**: publisistika, yazıçı, elm, müstəqillik, hiperrealizm.

**SCIENTIFIC AND THEORETICAL CHARACTERISTICS OF THE DEVELOPMENT OF WRITER'S PUBLICISTS**

**Leyla Mammadaliyeva**
*Azerbaijan University, Baku, Azerbaijan*

**Abstract**. In the article, the historical development path of Azerbaijani publicism is investigated, studied and analyzed, the historical sources of the creation of journalism, the factors contributing to its creation, and the directions of ideas are presented in the social and political background of the period. The article discusses the services of prominent Azerbaijani writers and publicists, the characteristic features of the environment in their journalistic works, the socio-political situation typical of the period of independence, and the role of the hyperrealism trend, which has a flexible and operative attitude to events.
**Keywords**: journalism, writer, science, independence, hyperrealism.

**НАУЧНО-ТЕОРЕТИЧЕСКАЯ ХАРАКТЕРИСТИКА РАЗВИТИЯ ПИСАТЕЛЬСКОЙ ПУБЛИСИСТИКИ**

**Лейла Маммадалиева**
*Университет Азербайджан, Баку, Азербайджан*

**Резюме.** В статье анализируется и изучается исторический путь развития азербайджанской журналистики в хронологическом порядке по периодам, представлены исторические истоки создания журналистики, факторы, способствовавшие ее созданию, и направления идей в социально-политическом фоне периода. Рассматриваются заслуги выдающихся азербайджанских писателей и публицистов, характерные черты среды их публицистического творчества, общественно-политическая ситуация, характерная для периода независимости, а также роль течения гиперреализма, имеющего гибкий и оперативный подход к событиям.
**Ключевые слова:** журналистика, писатель, наука, самостоятельность, гиперреализм.

## 1. Giriş

Genetik baxımdan publisistikanın antik bəlağətdən Demosfenin, Sokratın, Siseronun nitqlərindən, Platonun, Aristotelin, Kvintilianın, Tasitin ritorika ilə bağlı əsərlərindən, Bibliyanın moizələrindən və pritçalarından, qədim əxlaqi-etik dərsliklərdən, tarixçilikdən, salnamələrdən törədildiyinin şahidi oluruq. Satirik, tarixi, didaktik folklor motivləri publisistikanın formalaşmasına təsir göstərmişdir. Avropa publisistikası parodiya səciyyəli ədəbiyyatla və iqtidar əleyhinə yönəlmiş pamfletlərlə, Rotterdamlı Erazmın satirik əsərləri ilə,

Reformasiyanın ideoloqları olan Münserin və Martin Lüterin nitqləri ilə bağlıdır. XIX-XX əsrlərdə publisistika incəsənətin özünüdərki və onun gerçəkliklə qarşılıqlı əlaqələrinin təşəkkülündə və inkişafında mühüm rol oynamışdır.

Tədqiqatçı Famil Mehdi "Bədii publisistika" adlı nəzəri tədqiqat əsərində bu üslubun janrlarına – oçerk, felyeton, pamflet, bədii gündəlik, məktub, açıq məktub, sənədli povest, sənədli novella, səyahətnamə, bədii nitq və s. aid edir. Publisistikanın əsas mahiyyəti, əsasən, cəmiyyəti maarifləndirməsi və ictimai rəyin formalaşmasına fəal təsir göstərməsindədir. Ümumiyyətlə, ictimai rəyin formalaşması və cəmiyyətin daha operativ məlumatlandırılması üçün publisistik üslub olduqca uyğun və əlverişli, ifadə vasitələri rəngarəngdir. Elə buna görədir ki, publisistika həmçinin "obrazlı təbliğatın ən gözəl nümunəsinə" [5] çevrilməklə yanaşı, həmçinin əhatə dairəsi baxımından müxtəlif mövzuları işıqlandırmağa (iqtisadi, siyasi, elmi, bədii) xidmət edir. Dünya publisistika tarixinə nəzər saldıqda görürük ki, ən məşhur publisistlər əsasən öz dövrünün məşhur yazıçı və şairləri olmuşlar. Belə ki, publisistika müstəqil bir elm sahəsi olmasa da, onun ədəbiyyat, incəsənət və jurnalistika ilə sıx vəhdətdə inkişafı inkaredilməzdir. Elə bu baxımdan haqqında bəhs edəcəyimiz yazıçı publisistikası da bütün dövrlərdə müstəqil idrak forması, zamanın canlı, aktual, ictimai-siyasi hadisələrinə fəal münasibətin nəticəsi kimi meydana çıxmış və əksər hallarda ictimai zərurətdən doğulmuşdur.

## 2. Azərbaycanda publisistik ünsürlərin yaranması

Məlumdur ki, insanı, cəmiyyəti kamilləşdirən ən güclü vasitələrdən biri də bədii sözdür. Bədii sözün təsir gücü xalqı daim birliyə, bərabərliyə səsləmişdir. Publisistik deyim tərzi və müraciət hələ qədim zamanlarda xalqın zülmə, istismara qarşı mübarizə fonunda yaranmış, şifahi xalq ədəbiyyatı nümunələrində rast gəlinmiş, Nizami Gəncəvi, Xaqani Şirvaninin əsərlərində, Məhəmməd Füzulinin "Şikayətnamə"sində bədii publisistik ünsürlər mövcud olmuşdur. Hacı Zeynalabdin Şirvaninin səyahətnamələri, Mirzə Fətəli Axundzadənin əsərləri ilə publisistika yeni keyfiyyətlər qazanmışdır. 1875-ci ildə "Əkinçi" qəzetinin yaranması və Azərbaycan milli mətbuatının əsasının qoyulması ilə publisistika, eləcə də bədii publisistika yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.

Məsələn, Nizami Gəncəvinin "Xəmsə"sində qoyulan insan və cəmiyyət anlayışı, eləcə də digər bəşəri problemlərin qoyuluşu, əslində, publisistikanın predmetidir. "Sirlər xəzinəsi"ndə "Nuşirəvan və bayquşların söhbəti" [4, s.65] fəsli ayrılıqda kəskin pamflet formasındadır ki, bunun özü də publisistik üsluba aiddir. Pamflet ayrı-ayrı faktlara deyil, bütöv siyasi, dövlət, fəlsəfi, yaxud estetik sistemə, cəmiyyətdə nüfuz sahibi olan konkret xadimlərə - siyasətçilərə, sosioloqlara, alimlərə, ədəbiyyatçılara qarşı yönəlmiş sərt və ekspressiv ifşa ilə xarakterizə olunur. Bir qayda olaraq pamflet təbliğat məqsədi güdür, məhz buna görə də tendensiyalı xarakter daşıyır. Epistolyar – məktub şəklində yazılmış, bu gün də ictimai-siyasi dəyərini qoruyub saxlayan "Şikayətnamə" [6, s.305] pamfleti anadilli bədii publisistikanın ilk klassik nümunəsi sayıla bilər. XIX əsrdə Azərbaycan ictimai-siyasi həyatında baş verən ictimai eybəcərliklər Qasım bəy Zakirin kəskin satiralarının formalaşması və Mirzə Fətəli

Axundzadənin publisistikası üçün də zəmin yaratmış oldu. M.F.Axundzadənin "Kəmallüddövlə məktubları" [1, s.7] epistolyar publisistikanın dəyərli nümunəsi kimi maraqlıdır.

Azərbaycanda publisistikanın təşəkkülündə Həsən bəy Zərdabinin misilsiz xidmətləri olmuşdur. Publisistikanın təməli üç böyük şəxsiyyətin – Mirzə Fətəli Axundzadə, Həsən bəy Zərdabi və Cəlil Məmmədquluzadənin adı adı ilə bağlıdır. Həsən bəy Zərdabi irsinin tədqiqatçısı İzzət Rüstəmov "Həsən bəy Zərdabi" [8] adlı monoqrafiyasında alimin keçdiyi ömür yolunu layiqincə işıqlandırmışdır. Çağdaş publisistikanın tədqiqində xüsusi xidmətləri olan Şamil Vəliyev "Əkinçi" qəzeti ilə bağlı bir sıra tədqiqat əsərlərinin də müəllifidir. Qəzet barədə o yazır: *"Əkinçi" sadəcə, ilk peşəkar-praktik işin başlanğıcı, Azərbaycan milli mətbuatının banisi kimi səciyyələnmir, o həm də jurnalistikaya dair elmi-nəzəri fikrin və milli təcrübənin tarixi abidəsi kimi mühüm əhəmiyyət daşıyır"* [9, s.156].

Doğrudan da, "Əkinçi" özündən sonra bir çox mətbuat orqanlarının yaranmasına təkan verdi. Burada dərc olunan publisistik əsərlərdə "Əkinçi" ənənələri yaradıcı şəkildə davam etdirildi.

"Əkinçi"dən sonra bir-birinin ardınca çap olunan "Ziya", "Ziyayi-Qafqaziyyə", "Kəşkül", "Şərqi-rus" "Molla Nəsrəddin", "Füyuzat", "Həyat, "Təzə yol", "Azərbaycan", "İstiqlal" və s. kimi onlarla qəzet və jurnalda dövrün bütün eybəcərlikləri, mühüm mədəni nailiyyətləri, habelə əhalinin iqtisadi, sosial vəziyyəti və s. geniş və ətraflı işıqlandırılmışdır.

XX əsrin əvvələrində "Şərqi-rus", "Həyat" kimi qəzetlərin, "Füyuzat", "Molla Nəsrəddin" kimi jurnalların meydana gəlməsilə publisistika yüksək inkişaf mərhələsinə qədəm qoymağa başladı. "Molla Nəsrəddin" jurnalı mövhumatı, cəhaləti kəskin tənqid edir, yerlərdə müstəmləkəçilik siyasətini pisləyir, avam camaatı qəflət yuxusundan oyatmağa çalışırdı. Jurnal ətrafına ən fəal, vətənpərvər publisistləri toplayırdı. Həmin dövrün publisistikasını Cahangir Məmmədli haqlı olaraq belə xarakterizə edir: *"Azərbaycan publisistikası XX əsrin əvvələrindəki səviyyəsilə heyrət doğurur. Həmin dövrdə Azərbaycanda baş verən ictimai-siyasi hadisələr, milli özünüdərk prosesinin güclənməsi, azərbaycançılıq ideyalarının qabardılması həm mövzu dairəsini, həm də sənətkarlıq keyfiyyətini yüksəklərə qaldırdı"* [2, s. 7].

C.Məmmədquluzadənin "Azərbaycan" [7, s. 4] adlı məqaləsi həmin dövrün ictimai ab-havasını özündə əks etdirməsi baxımından xüsusilə əhəmiyyətlidir. Yazıçı publisistikası da bu ehtiyacdan yarandı. İncəsənət əsərlərinin kütləvi şəkildə yenidən vüsət alması, tirajlanmaları və onların kütləvi şəkildə yayılması bu prosesdə mühüm rol oynayır.

Sovet diktaturasının rəhbəri Stalinin ölümündən sonra, 60-cı illərdən başlayaraq elm və incəsənətin müxtəlif sahələrində canlanma müşahidə olunmağa başladı. Yumşalma dövründə aşkarlığa imkan verilməsə də, söz sənətkarları sətiraltı qatlarda öz ideyalarını ifadə etməyə qismən də olsa, imkan tapa bildilər. Bu baxımdan cəmiyyətin saxta dəyərlərindən uzaqlaşan, diqqəti insan və onun düşüncə tərzinə yönələn, bəzən sosialist realizmindən uzaqlaşıb modernist yazı üslubuna can atan yeni tendensiya meydana gəlir. "60-cılar" adlanan bu nəslin

nümayəndələri həm müxtəlif ədəbi növ və janrlarda yazdıqları bədii əsərlərdə, həm də yazıçı publisistikası ilə saxtakar kommunist ideologiyasına qarşı çıxan yazıları ilə diqqəti cəlb edirlər. Cəmiyyət ziddiyyətlərinin artması, rəsmi yalanlarla gerçək həyat münasibətlərinin tərs mütənasibliyi, ictimai ədalətsizlik, sosial əxlaqın pozulması, insan mənəviyyatına zidd bir mühitin bərqərar olması yazıçıların publisistik üsluba müraciət etməsinə zəmin yaratmışdır. Bu yazıçılar tarixə müraciət edəndə də yaşadıqları dövrün problemlərini düşünür, müasirliyə xidmət edirdilər.

Haqqında bəhs olunan dövrü publisistika araşdırıcısı Aygün Əzimova haqlı olaraq belə səciyyələndirir: *"SSRİ sərhədləri daxilində yaşayan xalqlar, o cümlədən Azərbaycan xalqı 1960-cı illərdən başlayaraq ədəbiyyat və mədəniyyət quruculuğunda milli dəyərlərə, müstəqillik ideyalarına üstünlük verir və bu zaman məhz senzura ilə üzləşməli olurdular. Həmin illərdə sovet senzurasının təzyiqləri ilə mübarizə şəraitində yaşayan və yaradıcılıqla məşğul olan qələm fədailəri, xüsusən "60-cılar" adı ilə ədəbiyyat və mədəniyyət tariximizə daxil olan yazarlar bədii publisistika ənənələrindən yaradıcılıqla bəhrələnməyə başladılar"* [3, s.15].

Sovet sisteminin dağılacağını qabaqcadan hiss etmiş sənətkarlar fəallıq nümayiş etdirməyə başlamış, ən münasib vasitə kimi obrazlı səciyyə daşıyan bədii publisistikaya üstünlük vermişdilər.

1988-ci illərdən başlayaraq ölkədə baş verən məlum olaylardan sonra, demək olar ki, ziyalılarımızın əksəriyyətinin məhz publisistik üslubda qələmə aldıqları bütün əsərlər dövrün reallıqlarını əks etdirməyə yönəlmişdir. Tarix sübut edir ki, zaman-zaman köləliyə, zorakılığa qarşı yönəlmiş ən tutarlı, kütləvi mübarizə vasitələrindən biri də mətbuatdır. Publisist müəlliflər etiraf etmişlər ki, məhz bu üslubda yazmaqla insanlarda müstəqillik duyğularını alovlandırmaq, xalqı sülh şəraitində firavan yaşamağa ruhlandırmaq, müharibənin sona çatmasını arzulamaq kimi şüar, çağırış xarakterli əsərlər daha münasib, daha əlverişlidir. Publisistika həmişə yazıçılar, jurnalistlər və ümumiyyətlə, dövrün ziyalı təbəqəsinin diqqət mərkəzində dayanan üslubdur.

Publisistik üslubun inkişafında hiperrealizm cərəyanının da rolu böyükdür. Hiperrealizm (ingilis hyperrealism − fövqəlrealizm sözündən) − keçən əsrin 60-cı illərində ABŞ-da yaranan və sonralar bütün dünyaya yayılan bədii cərəyandır. Bu cərəyan özünü ilk növbədə təsviri incəsəndə büruzə vermişdir. Bu, fotoqrafiyanın səciyyəvi cəhətlərini təqlid etməklə ifadə olunur.

Gözə görünən dünyanın avtomatik vizual tərzdə fiksə olunması, sənəd dəqiqliyi, foto təsvirinin rəngi, fakturası və digər zahiri əlamətləri hiperrealizmin xarakterik cəhətləridir. Şəhər mühitinin − onun küçələrinin, vitrinlərinin, reklamlarının, par-par parıldayan avtomobilləri, şəhər sakinlərinin makrofotoları hiperrealizmin əsas məzmununu təşkil edirlər. İstehlak cəmiyyətinin zənginliyi və antihumanizminin boya ilə və fotoqraf dəqiqliyi ilə təsviri, bu dünyanın dəyişməməzlik ideyası hiperrealizmin aparıcı mövzularıdır.

1990-cı illərin əvvəllərində Azərbaycanda yaşanan ictimai-siyasi böhranlar, Dağlıq Qarabağda elan olunmamış müharibənin başlanması, 20 Yanvar faciəsi, daha sonra Xocalı adlı

dünyada analoqu olmayan dəhşətli soyqırımın törədilməsi və s. bu kimi fəci olayların dünyaya çatdırılmasında oçerklərlə yanaşı fotomaterialların da təqdim olunması diqqəti cəlb edir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra publisistikanın ictimai-siyasi həyata təsir və müdaxiləsinin fəallaşması təbii prosesə çevrildi. Bütövlükdə bu dövr bəzən postmodernist dövr kimi qymətləndirilir. Azərbaycan publisistikasına xas olan üslub rəngarəngliyi, ideya-məzmun zənginliyi, həmçinin, yazıçı publisistikası üçün də xarakterikdir. Müstəqillik dövründə yaranıb formalaşan yazıçı publisistikası üçün ədəbi-tarixi istinad rolunu milli-mənəvi yaddaşın önə çıxarılması, azadlıq ideyalarının qorunması, dövlət quruculuğu kimi məsələlərə həsr olunmuş ədəbi-bədii-publisistik əsərlər oynayırdı.

Müstəqillik dövründə publisistik yazıları ilə xalqın mübarizə əzmini, iradə və dönməzliyini bir az da artıran yazıçıların da yaradıcılığının ana xəttini ölkənin taleyi, ərazi bütövlüyü, Qarabağın azadlığı kimi məsələlər təşkil edirdi. Bu dövrdə Azərbaycan yazıçılarının publisistik yazıları mütəmadi olaraq, "Azərbaycan", "Ulduz", "Qobustan" jurnalı, "Ədəbiyyat qəzeti", "Ədalət", "Kaspi" və s. kimi qəzetlərdə çap olunurdu.

Müstəqillik dövründə görkəmli publisistlərdən Sabir Əhmədli, Bəxtiyar Vahabzadə, Anar, Elçin, Sabir Azəri, Manaf Süleymanlı, Xəlil Rza Ulutürk, Vilayət Quliyev, Elmira Axundova, Rafael Hüseynov, Sabir Rüstəmxanlı, Səyyad Aran, Elçin Hüseynbəyli, Mustafa Çəmənli, Çingiz Abdullayev, Natəvan Dəmirçioğlu, Hüseynbala Mirələmov, Yunus Oğuz, Əli İldırımoğlu, Xeyrəddin Qoca, Akif Əli, Orxan Fikrətoğlu, Səyavuş Sərxanlı, Nemət Veysəlli, Abuzər Bağırov və digərlərinin adlarını çəkmək olar. Təbiidir ki, dövr və zaman dəyişdikcə ictimai ab-havaya uyğun olaraq ziyalılar xalqın haqq səsinin qaldırılması, milli-mənəvi dəyərlərin yaşadılması, azərbaycançılıq, türkçülük, islamçılıq dəyərlərinin qorunması, sözün təsir gücünün daha kəsərli olması məqsədilə publisistikaya müraciət etməli olurlar.

Zaman dəyişdikcə mətbuatda bədii təfəkkür süzgəcindən keçmiş publisistik yazıların dərc olunmasına daha çox yer verilirdi və publisistika əsl gücünü bu vasitə ilə göstərə bildi. Müstəqillik illərində başlanan siyasi çəkişmələr, dövrün, mühitin ab-havası və s. kimi məsələlər, təbii ki, yazıçı publisistikasının yenidən dirçəlməsi, inkişafı üçün böyük bir təkan oldu.

Yazıçı öz publisistikası ilə son dərəcə geniş və hərtərəfli həyat və estetik materialı mənimsəməlidir. Bütün tənqidçilərdən əsərin dəyərləndirilməsində eyni nəticəyə gəlməyi tələb etmək olmaz, lakin onların ədəbi-bədii nümunə ilə bağlı mülahizələri müəllifin müəyyən etdiyi proqram çərçivəsində olmalıdır. Yazıçı publisistikası bir tərəfdən predmeti olan ədəbi-bədii nümunə ilə bağlıdır, onun şərhinə və dəyərləndirilməsinə əsaslanır, lakin digər tərəfdən müəllifin həyat materialına münasibətini və estetik prinsiplərini ifadə etdiyinə görə fərqli özgür və müstəqil, bədii sözlə mövcud reallıq arasında təşəkkül tapmış əsərdir.

Beləliklə, yazıçı publisistikasının elmi-nəzəri müstəvidə təhlil olunmasından sonra qeyd etmək olar ki, adi publisistik yazılardan fərqli olaraq bədii publisistika milyonlarla oxucuya müraciət etmək imkanına malikdir. Məhz buna görə də yazıçı publisistikası ona qədər rüşeym

şəklində olan milli azadlıq ideyalarına geniş rəvac verdi.

**Nəticə.** Cəmiyyətin sosial və iqtisadi inkişafında önəmli rol oynayan ötən əsrin publisist üslubda qələmə alınmış əsərləri nəzərdən keçirilərkən belə qənaətə gəlinir ki, gələcəkdə baş verəcək hadisələrin ilk anonsunu operativ verməyə qadir olan publisistika yazıçıların yaradıcılığında böyük əhəmiyyətə malikdir. Söz adamlarının ən münasib üslub kimi bədii publisistikaya üstünlük vermələri də bununla bağlıdır. Bu dövrdə yazıçı publisistikasında əsasən dövrün, mühitin siyasi ab-havası, ölkədə baş verən hadisələrin təcəssümü və birbaşa ona münasibət daha çox üstünlük təşkil edir. Bu baxımdan yazılmış publisistik əsərlərdə əsasən millilik, milli vətənpərvərlik hissləri qabarıqlığı ilə əks olunur.

## Ədəbiyyat


1. Axundzadə M.F. Əsərləri. 3 cilddə, II cild, Bakı, Şərq-Qərb, 2013, 330 s.
2. Azərbaycan publisistika antologiyası. Tərt.ed. Cəlal Bəydili (Məmmədov). – Bakı: Şərq-Qərb, 2007, 688 s.
3. Əzimova A.Q. Müstəqillik dövrü Azərbaycan mətbuatında bədii publisistika ("Azərbaycan", "Ulduz", "Qobustan" jurnallarının materialları əsasında): Filologiya üzrə fəlsəfə doktoru dissertasiyası. Bakı, 2007, 148 s.
4. Gəncəvi N. Sirlər xəzinəsi, Bakı: 2004. Azərbaycan Mədəniyyətinin Dostları Fondu, 192s.
5. Mehdi, F.A. Bədii publisistika, Bakı: Maarif nəşriyyatı, 1982, 292 s.
6. Məhəmməd F. Əsərləri. 6 cilddə. II cild. Azərbaycan nəşriyyatı, Bakı, 1996, 368 s.
7. Məmmədquluzadə C. Əsərləri, 4 cilddə, III cild, Bakı, Öndər nəşriyyatı, 2004, 480 s.
8. Rüstəmov, İ.R. Həsənbəy Zərdabi, Bakı: Gənclik, 1969, 185 s.
9. Vəliyev Ş. Azərbaycan ədəbiyyatı və mətbuatından araşdırmalar: [2 cilddə] – Bakı: Elm və təhsil, c. 2, 2011, 544 s
10. https://thestrip.ru/az/dlya-zelenyh-glaz/chto-takoe-giperrealizm-v-zhivopisi-kak-sozdayutsya-kartiny-v-stile/